# Türkmanlar

**I Şah Təhmasib dövrü (1524 – 1576)**

Səfəvi dövrü, Türk oymaqları tarixində  Türkmanın xüsusi bir mənası var. Türkman orada Ağqoyunlu elinin özəlliklə iki önəmli oymağı olan Mosullu və Pörnəklərin Səfəvi xidmətindəki qollarını ifadə etməkdədir. Yəni Türkman, Səfəvi oymaqları arasındakı Mosullu və Pörnək oymaqlarının adıdır. Adı keçən oymaqların bu ad ilə anılmaları da Ağqoyunluların Türkmən olmalarından irəli gəlir. Ancaq adı keçən oymaqlara bu adın verilməsini qeyri-dəqiq bulmaq və bunu qəribə bir təbir olaraq qarşılamaq yerindədir. Çünki digər oymaqlar da Türkmən köklü olub, heç olmazsa bir qismi, bunu bilir və bu adla anılırdılar. Hər halda bunların Ağqoyunlu və ya bunun kimi uyğun bir ad ilə anılmaları düşünülmədi.

Şah İsmayılın anası ilə ata nənəsinin Ağqoyunlu xanədanına mənsub olduğunu əvvəlcə  qeyd etmişdik. Şah İsmayıl da Mosullu bəylərindən birinin qızı ilə evlənmiş (Taclu Xanım) və bu izdivacdan Təhmasib ilə Bəhram mirzələr doğulmuşdu. Təhmasib də yenə Mosullu bəylərindən İsa Bəyin qızı ilə evlənmişdi. Sultan Məhəmməd və İsmayıl mirzələrin anaları da məhz adı keçən İsa Bəyin qızıdır. Ağqoyunlu və Qaraqoyunlu uluslarına mənsub oymaqlar ancaq Səfəvi dövlətinin quruluşundan sonra bu dövlətin xidmətinə girdilər. Hicri 913-cü (1506-7 = Luy ili) ildə Diyarbəkir hakimi Mosullu Əmir Bəyin başında bulunduğu topluluq ilə Şah İsmayılın xidmətinə girdiyindən və Səfəvi hökmdarının bundan son dərəcədə məmnun qaldığından əvvəlcə bəhs edilmişdi. Əmir Xanın İbrahim və Əli Bəy adlı qardaşları ilə Məsum, Məhəmmədi və Mərcümək (Mərcimək) adlı oğullarını tanıyırıq. Bunlardan İbrahim Sultan hicri 933-də (1527) Bağdad valisi, Əli Bəyin oğlu Noxud Sultan da (əsl adı Zülfüqar) Kəlxur valisi idilər. Hicri 934-də (1528) Noxud Sultan, əmisi İbrahim Sultanı və Mərcümək Sultan da daxil olmaq üzrə, əmisi oğullarından əksərini öldürüb Bağdadı ələ keçirdi. Bunu xəbər alan Şah Təhmasib, Xorasan səfərindən vaz keçərək sürətlə Bağdad üzərinə yürüdü və şəhəri yandırıcı bir isti altında mühasirəyə aldı. Təhmasib mühasirənin uğursuzluqla sonuclanacağından qayğılanmağa başladığı bir sırada Noxud Sultan, Bəktaş Bəyin oğulları və Uzun Həsən Bəyin ünlü sərkərdələrindən Sufi Xəlil Bəyin nəvələri, Əli və Əhməd Bəylər tərəfindən aradan götürüldü. Mərcümək Sultanın Yadigar Məhəmməd Tarxan adlı bir oğlunu tanıyırıq ki, Savə valisi ikən hicri 969-da (1561) vəfat etmişdir. Bunun oğlu Əbül-Məsum Sultanı da Təhmasibin ölümündə mərkəz əmirləri arasında görürük. Hicri 972-ci (1564-1565) ildə əmirlər arasında bulunan, 975-də (1567-1568) Gilan səfərinə qatılan və Təhmasibin ölümü əsnasında Reyin Huvar qəsəbəsində oturan Əmir Xan da Məhəmmədi Bəyin oğlu, Yadigar Məhəmmədin əmisi oğlu idi.

Təhmasib hicri 939-cu (1532-1533) ildə qaynı Türkman Musa Sultanı Təbriz valisi təyin etdi. Vəzir-i əzəm İbrahim Paşa Musa Sultanın Osmanlı xidmətinə girməyi düşündüyünü xəbər almışdı; ancaq Təbriz üzərinə yürüdüyündə Musa Sultanın şəhəri boşaldıb Əcəm İraqına yönəldiyini eşitdi. Musa Sultana dair başqa bir xəbərə rast gəlinmədiyinə görə onun bu illərdə öldüyü anlaşılır. Eyni ildə Ənük Oğlu Mahmud Bəy, Təhmasibin eşik ağası başı idi. Hicri 947-də (1540-1541) yenə bu oymaqdan Əhməd adlı bir əmir görməkdəyik. Bu əmir qardaşı Əli Bəy ilə birlikdə hicri 935-də (1528-1529) Noxud Sultanı öldürən Ağqoyunlu əmirlərindən məşhur Sufi Xəlil Bəyin nəvəsi Əhməd Bəydən başqası olmasa gərəkdir. Təhmasib hicri 936-da (1529-1530) Noxud Sultanın öldürülməsində əsl rolu oynayan Əli Bəyə əmirlik vermişdi. Qanuninin hicri 955-dəki (1548-1549) ikinci səfəri əsnasında Türkman əmirlərindən Əli Qulu Bəyin iki min nəfərlik bir gücə rəhbərlik etməsi onun böyük əmirlərdən biri olduğunu göstərir. Bu əmirin yuxarıda adı keçən Əli Bəy ilə eyni şəxs olduğuna dair heç bir dəlilə sahib deyilik. Bu sırada Mosullu Əmir Xan oğlu Məhəmmədi Bəy Şirvanda dirlik sahibi idi. Adı keçən bəyin hicri 960-cı (1553) ildə həyatda olduğunu bilirik. Yenə eyni boydan Heydər Bəy 975-də (1567-1568) Savə valiliyində bulunurdu.

Təhmasibin ölümü əsnasında mövqe sahibi beş Türkman əmiri vardı ki, bunlardır: Mosullu Məhəmmədi Bəy oğlu Əmir Xan, Pörnək Şah Qulu Xan (İsfahan), Söhrab Xəlifə oğlu Süleyman Xəlifə (Xorasanda Tun və Təbəs valisi), Heydər Sultan (Cabuq Tarxan oğlu?, Qum valisi), Yadigar oğlu Əbül-Məsum Sultan.

**II Şah İsmayıl və Sultan Məhəmməd Xudabəndə dövrü (1576 – 1587)**

Əmir Xanın Azərbaycan bəylərbəyisi təyin edilməsi ilə bu oymağın çox mühüm bir qismi adı keçən bölgədə yerləşdi Ancaq Osmanlı fəthi və Əmir Xanın öldürülməsi kimi səbəblərdən onlar buranı tərk etmək məcburiyyətində qaldılar. Türkman oymağının digər bölükləri də Əcəm İraqında Qum, Kaşan və Savə yörələrində yaşayırdılar. Bəhs edilən olaylar dolayısı ilə Azərbaycanı tərk etmək məcburiyyətində qalanlar bunlara qatıldıqları kimi, Murtaza Qulu Xanın ölümü üzərinə (hicri 995=1587) Xorasan və Astarabad dolaylarında oturanlar da Əcəm İraqına, boydaşlarının yanına gəldilər.

**I Şah Abbas dövrü (1587 – 1629)**

Səfəvilərin xidmətində bulunan oymaqlar arasındakı Türkman boyunun Ağqoyunlu dövlətinin dayandığı iki böyük oymaq olan Mosullu və Pörnəklərdən meydana gəldiyi daha öncə bir neçə dəfə bildirilmişdi. Şah Abbasın hökmdarlığının ilk illərində, Şah Budaq Sultan, Şah Qulu Sultan, Süleyman Xəlifə (Ustalu Mürşid Qulu Xanın kürəkəni), Dəli oğlu Heydər Bəy, Məhəmməd Bəy, İmam Qulu Bəy, Bistam Ağa, Təhmasib Qulu, Söhrab Xəlifə, Murtaza Qulu Xanın oğlu Məhəmməd Qulu Xan, Əli Bəy, Şah Bəndə Xan, Bayandurdan Murad Bəy, Pir Budaq Xan kimi bir çox əmirlər vardı. Abbas, bu əqrəbalarını da zamanla aradan götürdü. Belə ki, 1628-ci ildə bu boydan ancaq iki nəfər əmirlik mövqeyində bulunurdu. Bunlardan biri Təbriz bəylərbəyisi Şah Bəndə Xan oğlu Pir Budaq Xan, digəri də Qapanat (Qafan) valisi Ördəkli Həsən Sultan idi. Ördəkli obasının adına daha öncə rast gəlinə bilmir.

Türkmanlar üçün qeydə dəyər bir məqam da onlardan digər oymaqlara nəzərən daha çox təhsilli əmirlərin çıxmış olmasıdır. Bunun bir deyil, bir neçə səbəbi olmalıdır. Sadıq Bəy Avşardan öyrəndiyimizə görə, bu əmirlər təhsil görmüş olub Türkcə və Farsca şeir yazmaqda idilər: Əmir Xanın oğlu Sultan Mahmud Xan, Məhəmməd Mömin Bəy, Məhəmməd Saleh Mirzə, Qasım Bəy (Haləti təxəllüslü), Mahmud Bəy (Salim təxəllüslü), Susəni Bəy, Abbas Bəy, Piri Bəy (əslən Dögər boyundan), Məvali. Bu əmirlər ilə Türkman əsilzadəsi, aralarındakı oxuma-yazma bilənlər baxımından Səfəvi Qızılbaş boylarının ən başında yer almaqdadır.

Şah Abbas zamanında doğrudan doğruya Bayandur, yəni Ağqoyunlu xanədanından bəzi əmirlərin varlığı görünməkdədir. Şahların bunlara bir şey etməmələrinə heyrət edilə bilər. Bu əmirlərdən biri Məhəmməd Zaman Sultan idi. Məhəmməd Zaman Sultanın ailəsi Yəzdli idi. Özü hərb sənətindən anlamaqla yanaşı, təhsilli, şeirə aşina, dindar bir əmir olub, Abbasın nədimləri arasında yer almışdı; hicri 1017-ci (1608-1609) ildə vəfat etmişdir. Digər bir Bayandurlu da adı keçənin atası Murad Bəy idi.

**Faruk Sümer — *«Safevi Devletinin Kuruluşu ve Gelişmesinde Anadolu Türklerinin Rolü»***

**© ATB — Azərbaycan Türkçülər Birliyi**